ALMET-STP MMC

KEYFİYYƏTİ İDARƏETMƏ SİYASƏTİ

"ALMET-STP" MMC şirkəti keyfiyyəti idarəetmə prinsiplərini öz fəaliyyətində rəhbər tutaraq, bütün cari və potensial müştərilər üçün yüksək səviyyəli xidmət təmin etməyi özünə amal seçmişdir.

Rəhbərlik, işçilər və subpodratçılar da daxil olmaqla, idarəetmənin bütün səviyyələrində keyfiyyət prinsiplərinə əməl olunması, müştəriyə sadiqlik, müştəri məmnunluğu, iş mühitində təhlükəsizlik, ətraf mühitin qorunması amillərini rəhbər tutaraq, davamlı olaraq təkmilləşdirilmiş əməliyyatlar həyata keçirir.

"ALMET-STP" MMC regionun ən səmərəli, təhlükəsiz və dayanıqlı polad istehsal zavodu olmağa çalışır. Yerli ekosistemlərin inkişafını təşviq etmək və fəaliyyət göstərdiyi ərazilərdə bütün maraqlı tərəflər üçün dəyər yaratmaq məqsədilə yenilikçi və adaptiv strategiyalar tətbiq etmək, eyni zamanda, karbon neytrallığına keçid prosesində mühüm rol oynamaq siyasətinə sadiqdir.

18 Aprel 2024 – cü ildən fəaliyyətə başlayan "ALMET-STP" MMC metal tədarükü sahəsi, poladəritmə və yayma istehsal sahələrindən ibarətdir. Müəssisədə istehsal olunan məhsullara armaturlar, dairəvi və kvadrat çubuqlar, yastı profillər və billet daxildir.

Keyfiyyət prinsiplərini tətbiq etməklə baş verə biləcək potensial risklər qiymətləndirilir və minimuma endirilməsi üçün tədbirlər tətbiq olunur. Həmçinin risklərin və imkanların qiymətləndirilməsi cari və potensial sağlam biznes əlaqələrinin qurulmasında öz töhvəsini verməyə nail olur. İdarəetmə sistemi müntəzəm olaraq nəzərdən keçirilir, potensial imkanlar nəzərə alınır və müvafiq fəaliyyətlər həyata keçirilir.

Şirkət, ölçüləbilən və keyfiyyət siyasətinə uyğun gələn keyfiyyət hədəflərini qurmalı, təşkilat daxilində müvafiq səviyyədə müəyyən olunmasını, nəzərdən keçirildiyini və başa düşülməsini tam təmin etməlidir. Şirkət rəhbərliyi bu hədəflərin lazımınca həyata keçirilməsini, keyfiyyətin idarəedilməsi sisteminin qorunmasını və inkişaf etdirilməsini təmin etmək üçün bütün resursları təmin edir.

Şirkət, inteqrəolunmuş menecement sistemləri, eləcə də Azərbaycan Respublikasının qanunvericiliyi və beynəlxalq standartların tələblərindən irəli gələn müvafiq müddəaların icra edilməsini və həmçinin işçi heyət tərəfindən tam mənimsənilməsini və riayət olunmasını lazımı səviyyədə təmin edir.

"ALMET-STP" MMC davamlı inkişaf yolunu tətbiq etməklə əldə etdiyi müştəri məmnuniyyətini daimi yüksək səviyyədə saxlamaq üçün önləyici tədbirlər görür, həmçinin onların təklif və şikayətlərini tam araşdırır və müvafiq tədbirlərin həyata keçirilməsi üçün bütün gücünü səfərbər edir. Hər bir təklif və şikayət dərindən araşdırılır, kök səbəb analizi aparılır, düzəltmə və ya düzəldici tədbirlər görülür və potensial uyğunsuzluqların qarşısı alınır.

Şirkət, yerli və beynəlxalq qanunvericiliyin, bununla yanaşı beynəlxalq standartların tələblərini müəyyən periodlarda yenidən nəzərdən keçirərək, daima yeniliklərin izlənilməsini aktual saxlayır.

Keyfiyyət siyasətimiz ISO 9001:2015 standartına əsasən aşağıdakı prinsipləri şirkətin fəaliyyətində tətbiq etməyə nail olmağı hədəfləyir:

ISO 9001:2015 Keyfiyyət İdarəetmə Sistemləri

- Təşkilatın məqsəd və konteksinə uyğun olan və onun strateji istiqamətini dəstəkləyən öhdəlik;
- Keyfiyyəti İdarəetmə Siyasəti məqsədlərinin müəyyən edilməsi;
- Müvafiq tələblərə cavab vermək üçün öhdəlik;
- Keyfiyyəti İdarəetmə Siyasətinin davamlı inkişafı üçün öhdəlik.

İcraçı Direktor
Fərid Həsənov
21.09.2026

AZƏRBAYCAN RESPUBLİKASI Məhdud Məsuliyyətli Cəmiyyəti ALMET-STP Limited Liability Company AZERBAIJAN REPUBLIC